SARVAN CƏFƏROV
*BDU-nun Politologiya və sosiologiya kafedrasının magistrı*

# XƏZƏRİN KARBOHİDROGEN EHTİYATLARI VƏ AZƏRBAYCANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Xəzər dənizi dünyada mühüm geosiyasi əhəmiyyətə malik olan ərazilərdən biridir. XXI əsrin ilk illərindən beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər, yeni dünya nizamının yaranması, qloballaşma və.s nəticəsində Xəzər dənizi və Qafqaz regionu dünya siyasətində maraq obyektinə çevrilmişdir.

Xəzərin təbii ehtiyatları haqqında müxtəlif mənbələrdə fərqli məlumatlara rast gəlmək olar. "Nyu-York Tayms"qəzetinin 6 avqust 1997-ci il tarixli sayında göstərilir ki, Xəzərin sənaye və ya karbohidrogen mənbələri indiki qiymətlərlə 4 trilyon ABŞ dolları məbləğində qiymətləndirilən 200 milyard barel neftdən, habelə bir o qədər də qaz ehtiyatlarından ibarətdir (3, s. 667-668).

Xəzər bölgəsinə sürətlə marağın artması onun təbii ehtiyatlarıyla, xüsusilə neft və qaz laylarının zənginliyi ilə bağlıdır. Sahilyanı dövlətlərin hər biri kifayət qədər karbohidrogen ehtiyatlarına malik olduğu üçün regiona meyl edən investorlar uğrunda ciddi rəqabət gedir. Xəzərin statusu problemi də məhz bu rəqabətin və enerji ehtiyatlarında sahilyanı dövlətlərin müxtəlif maraqlarının nəticəsidir (3, s. 668-669).

Xəzər bölgəsindəki proseslər təkcə karbohidrogen yataqlarının istismarı və sektor problemi ilə məhdudlaşmır. Burada bölgəyə təsir məsələsi, neft kəməri və onun təhlükəsizliyi, xarici dövlətlərin iqtisadi və geosiyasi maraqları toqquşur. Neft mütəxəssislərinin birgə rəyinə görə, dünyanın heç bir yerində bu qədər xalqın, dövlətin və şirkətin yarışa girdiyi başqa bir bölgə tapmaq mümkün deyil.

Xəzər bölgəsinə siyasi və iqtisadi maraq göstərən dövlətlər arasında ən fəalı Qərb dövlətləri və Amerika Birləşmiş Ştatlarıdır. ABŞ-ın Xəzər bölgəsinə siyasi marağı Azərbaycana münasibətdə daha aydın hiss olunur. ABŞ Cənubi Qafqaz və Orta Asiyada həyata keçirilən strateji əhəmiyyətli layihələrin və proseslərin başlıca iştirakçısı və müdafiəçisidir. ABŞ hökuməti bu bölgənin özünün maraq dairəsinə daxil olduğunu dəfələrlə bəyan edib.

11 sentyabr 2001-ci ilin terror hadisələrindən sonra ABŞ-ın Orta Şərq, o cümlədən Azərbaycan və Mərkəzi Asiya ilə sıx münasibətləri fonunda formalaşan yeni siyasi mövqeyi müşahidə olunmaqdadır. Bu, reallaşan layihələrdə (BTC, BTE) özünü göstərir. Dövlət Departamentinin "Xəzər hövzəsinin enerji inkişafı"na dair hesabatlarında da bölgəyə xüsusi diqqət yetirildiyi müşahidə olunur (3, s. 670).

ABŞ ekspertlərinin hesablamalarına görə, Xəzərin karbohidrogen yataqlarının ümumi həcmi 200 milyard tona, İran istisna olmaqla qalan dörd Xəzəryanı dövlətin yanacaq-energetika ehtiyatları isə 51-57 milyard tona bərabərdir. Azərbaycanın 5 miyard tona yaxın neft və 3-4 trilyon kub metr qaz ehtiyatları dünya enerji ehtiyatlarının təxminən 4 faizini təşkil edir. Qlobal mənada bu kifayət qədər sanballı rəqəmdir və Azərbaycanın dünya dövlətləri sırasındakı mövqeyinə xüsusi təsir göstərir.

Təbii ehtiyatların zənginliyi o demək deyil ki, həmin ölkə dünyada üstün mövqeyə malikdir. Dünyanın müasir geosiyasi oriyentirlərinə təsir edən mühüm amillərdən biri də enerji məhsullarının təhlükəsiz yollarla dünya bazarına və istehlakçılara çatdırılması məsələsidir. Bu mənada Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının, neft və qazın ixrac marşrutlarının hansı ölkələrin ərazisindən keçməsi məsələsi də müasir geosiyasi və geoiqtisadi problemlərdəndir. Bu məsələdə həm region dövlətlərinin (Rusiya, İran,

Türkiyə, Azərbaycan, Gürcüstan, Ukrayna), həm dünya dövlətlərinin (ABŞ, Avropa İttifaqı ölkələri, Çin, Yaponiya), həm də neft istehsal edən əsas ölkələrin (Fars körfəzi ölkələri, Norveç, Venesuela və.s) maraqları nəzərə alınır. Biri nefti öz ərazisindən keçirməklə tranzit maraqlarını, digəri onun hansı marşrutla, hansı bazara axması ilə özünün satış bazarında rəqabət maraqlarını, üçüncülər özləri üçün daha ucuz, təhlükəsiz və sabit enerji mənbələri təmin etmək maraqlarını, dördüncülər isə sərvətlərini dünya bazarlarına sərbəst çıxarmaqla öz milli dövlətçilik və maddi problemlərini həll etməyə çalışırlar.

Regionun lider ölkəsi kimi Azərbaycan artıq təkcə özünün deyil, bütövlükdə bölgənin Avropaya, eləcə də onun enerji təhlükəsizliyi sisteminə qoşulmasına çalışır. "Əsrin müqaviləsi" imzalandıqdan bir az sonra AB şirkətləri ilə yeni müqavilələrin imzalanması baş verdi və dünyanın bütün aparıcı neft şirkətlərinin təxminən 80 faizi Xəzər dənizinin Azərbaycan bölməsində işləməyə başladı. Həmin layihələrə iki milyard dollara yaxın sərmayə qoyulmuş, 2005-ci ildə bu rəqəm 30 milyard dollara çatmışdır.

İmzalanmış neft müqavilələri hər bir mürəkkəb proses kimi qlobal və yerli səciyyə daşıyır. Sanki geosiyasət qlobal komponentin əsas hissəsini təşkil edir və AB şirkətləri məhz sabitliyə arxalanaraq müqaviləni imzalayırlar.

Hazırda Xəzər neft və qazının Avropa enerji bazarlarına daşınması üçün bir sıra neft və qaz kəmərləri mövcuddur. Enerji ehtiyatları Xəzərdən Qara dənizə uzanan neft kəmərləri (biri Qazaxstanın Tenqiz neft yatağından Qara dənizin sahilindəki Novorossiysk terminalına, digəri isə Azərbaycanın Çıraq neft yatağını Gürcüstanın Supsa terminalına bağlayan xətt), eləcə də petrol tankerləri ilə Bolqarıstan və Rumıniyaya, boğazlar vasitəsilə birbaşa Aralıq dənizinə-İsrailin Hayfa terminalına və Avropa bazarlarına çatdırılır.

Regionda ən uğurlu layihə Xəzər hövzəsini Aralıq dənizinə bağlayan Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməridir. 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin və ABŞ-ın Energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Təxminən üç il sonra-2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi və boru xəttinə ilk neft vuruldu. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verildi. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. Rəsmi açılış gününədək Ceyhan limanından 4,8 milyon barel neft yüklənmiş 7 tanker yola salınmışdır. 2005-ci ilin dekabrında BTC boru xətti istifadəyə verildi. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1774 kilometrlik xəttin çəkilməsinə təxminəm 4 milyard dollar vəsait xərclənmişdir. Layihənin operatoru BP şirkətidir. BTC kəməri ildə 50 milyon ton Azərbaycan nefti nəql etmək üçün nəzərdə tutulmuşdur. Hazırda kəmərlə gündə 1 milyon bareldən çox neft nəql olunur. Qazaxstanın BTC-yə qoşulması bu ölkəyə öz neftini Aralıq dənizi vasitəsilə Avropa bazarlarına çıxarmağa imkan vermişdir. BTC kəməri günlük bir milyon barel nefti AB bazarlarına daşımaqla AB və ABŞ-ın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Milyonlarla ton neftin boğazlarla daşınması bölgənin ekoloji tarazlığına mənfi təsir göstərmişdir. BTC-nin reallaşdırılmasından sonra bu problemlər xeyli aradan qalxmışdır.

BTC xəttinin yanıda Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti (BTE) paralel olaraq təbii qazı Xəzərdən Avropaya çatdırır. Bu kəmərin illik potensialı 20 milyard kub metrdir. Hazırda Azərbaycan bu kəmər vasitəsilə Türkiyəyə 7 milyard kub metr qaz ötürür ki, bu da Türkiyənin qaza olan tələbatının 20 faizini təşkil edir. Lakin Türkiyə Azərbaycan qazını sərhəddə alır və hər min kub metrə ödənilən məbləğ bazar qiymətlə-

rinin yarısından da azdır. Odur ki, hazırda qazın qiymətinin razılaşdırılmasına dair dövlətlərarası danışıqlar davam etdirilir.

Bu gün Azərbaycan regional hüdudlardan kənara çıxaraq daha böyük əməkdaşlıq məkanında öz maraqlarını təmin edir, rolunu gücləndirir. Ölkəmizin bu sahədəki siyasəti təkcə öz enerji ehtiyatlarını dünya bazarına çıxarmaqla məhdudlaşmır. Qərb-Şərq dəhlizi Azərbaycan üçün Xəzərin karbohidrogen ehtiyatlarının daşınması baxımından mühüm əhəmiyyət daşıyır. Trans-Xəzər boru kəmərinin çəkilişi ilə Azərbaycan bölgədə əsas tranzit ölkə rolunu da öz üzərinə götürəcək.

Regionun lider ölkəsi kimi Azərbaycan artıq təkcə özünün deyil, bütövlükdə bölgənin Avropaya, eləcə də onun enerji təhlükəsizliyi sisteminə qoşulmasına çalışır. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri regional əməkdaşlığa şərait yaratmaqla yanaşı, Cənubi Qafqazın Avroatlantik məkanına inteqrasiyasını sürətləndirir. Lakin Ermənistanın təcavüzkar mövqeyi bu siyasətin tam reallaşmasına mane olur. Bununla əslində Yerevan özünü regional iqtisadi layihələrdən kənarda saxlayır.

Son bir neçə ildə dünyada karbohidrogen ehtiyatlarının qiymətinin sürətlə artması, Avropa qaz bazarında Rusiyanın öz şərtlərini diktə etməsi Avropa Birliyinin alternativ yollar axtarması ilə nəticələndi. Rusiyanın “Qazprom” vasitəsilə enerji baxımından ondan asılı dövlətlərə təzyiqlər etməsi Qərbin Xəzərin və Mərkəzi Asiyanın neft və qaz ehtiyatlarına malik dövlətləri ilə əməkdaşlığını şərtləndirdi.

Xəzərin, xüsusilə Azərbaycanın enerji ehtiyatlarının Avropa üçün əsas alternativ enerji mənbəyinə çevrilməsi rəsmi Bakının mövqelərini və Qərb ilə əməkdaşlığını daha da möhkəmləndirmişdir. Bu gün bir çox Avropa dövlətlərinin, o cümlədən Polşa, Rumıniya və Baltikyanı dövlətlərin Azərbaycanla əməkdaşlığı yeni mərhələyə daxil olub. Azərbaycan Türkiyə, Gürcüstan, Moldova və Rumıniya kimi dövlətlərin neft-yanacaq komplekslərinin inşasına investisiya qoyub. Karbohidrogen ehtiyatlarının daşınması üçün dəhliz hazırlamaq məqsədi ilə Vilnüs Enerji Sammitinin nəticəsi olaraq yeni konsorsium təsis edilib. Onun yaradılmasında əsas məqsəd Azərbaycan, Gürcüstan, Ukrayna və Polşadan keçməklə Xəzər dənizindən Avropa bazarlarına və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasının mümkünlüyünü təhlil etməkdir. Baltik-Qara-Xəzər dənizləri enerji tranziti birliyinin yaradılması konsepsiyası da artıq gündəmdədir. Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri vasitəsilə Azərbaycan öz neftini nəinki Qara və Aralıq dənizlərinə, həm də Baltik dənizi bazarına çıxara biləcək.

Ukrayna artıq 2001-ci ilin sonunda ildə 9 milyon ton nefti nəql etmək gücünə malik Odessa-Brodı kəmərinin 674 kilometrlik hissəsinin tikintisini başa çatdırıb. 2003-cü ilin mayında isə Ukrayna, Polşa və Avropa İttifaqı Odessa-Brodı kəmərinin Polşayadək çəkilməsi və Xəzər neftinin bu kəmərlə tranzit layihəsini dəstəkləyən birgə sənəd imzalayıb. 2005-ci ilin martında Ukraynanın dövlət katibi Aleksandr Todiyçuk Ukrayna ilə Polşanın Odessa-Brodı kəmərinin Qdanska qədər çəkilişini 2006-cı ilədək başa çatdıracağını bəyan edib. İlkin hesablamalara görə layihənin ümumi dəyəri 400-500 milyon dollar civarında müəyyənləşdirilib. Lakin bu layihə hələ də reallaşmayıb və bu istiqamətdə səylər hələ də davam etdirilir. 2008-ci ilin noyabr ayının 14-də Bakıda keçirilən Enerji Sammitinin iştirakçıları- Azərbaycan, Bolqarıstan, Macarıstan, Yunanıstan, Gürcüstan, İtaliya, Latviya, Litva, Polşa, Rumıniya, ABŞ, Türkiyə, Ukrayna, İsveçrə, Estoniya və Avropa Komissiyası qəbul etdikləri yekun bəyannamənin 6-8-ci bəndlərində Avropa bazarlarına neft göndərilməsi üçün Avrasiya neft Nəqletmə Dəhlizi sistemində Odessa-Brodı neft kəmərinin işə salınmasının əhəmiyyətini qeyd etmiş, Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin istismarı üçün zəruri şərait yaradılmasına dair görülmüş təşkilati və əməli tədbirlərdən məmnunluqlarını bildirmişlər (1).

Vaxtilə Rusiya və İrandan qaz idxal edən Azərbaycan son beş ildə qaz ixrac edən ölkəyə çevrilmişdir. Təsdiq edilmiş qaz ehtiyatlarımız ən az 2 trilyon kub metrə bərabərdir. Belə bir vəziyyətdə qaz ixracında da şaxələnmiş siyasətin həyata keçirilməsi prioritet məsələdir. Bakı Enerji Sammitinin Bəyannaməsində də Xəzər hövzəsindən neftin və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsinə yönəlmiş siyasətin davam etdirilməsi vacib hesab edilir (1).

Hələlik respublikamızın qaz ixracında ən böyük paya Bakı-Tbilisi-Ərzurum kəməri sahibdir. İxrac potensialı 20 milyard kub metr, hazırkı dövrdə ixrac olunan qazın həcmi 7 milyard kub metrə bərabərdir. Ardıcıl olaraq Bakı-Tbilisi qaz kəməri vasitəsilə 900 milyon kub metr, Mozdok-Qazıməmməd qaz kəməri vasitəsilə isə 500 milyon kub metr qaz qonşu dövlətlərə ixrac olunur. Qaz kəmərləri içərisində Bakı-Tbilisi-Ərzurumdan sonra ən böyük potensiala Mozdok-Qazıməmməd qaz kəməri malikdir. Kəmərin ixrac potensialı ildə 7 milyard kub metrdir. Bakı-Tbilisi qaz kəmərinin illik ixrac potensialı 2 milyard, Bakı-Astara qaz kəmərinin ixrac potensialı isə 1 milyard kub metrə bərabərdir. Hazırda Naxçıvan MR-in tələbatını ödəmək məqsədi ilə İrandan qaz idxal edilir. Əvəzində isə bu kəmər vasitəsilə İrana qaz ixrac olunur.

2016-cı ilin üçüncü rübündə Şahdənizin ikinci fazasından çıxarılacaq qazın həcmi 16 milyard kub metr olacaq ki, onun 14 milyard kub metri nəql olunmalıdır. Bu zaman payın yarı hissəsisini-7 milyard kub metrini Mozdok-Qazıməmməd qaz kəməri vasitəsilə nəql etmək olar. Lakin Rusiyanın Azərbaycandan bu qədər qaz alması real görünmür. Azərbaycan qazının Avropaya nəqli Rusiya üçün əlverişli deyil. Rusiyanın cənubunun isə 7 milyard kub metr qaza ehtiyacı yoxdur. Bundan başqa bu region siyasi cəhətdən əlverişli deyil. Bu cür vəziyyətdə Respublikamız “NABUCCO” layihəsinin reallaşması imkanları üzərində çalışmalıdır. Dövlətimiz bu sahədə bütün addımları atıb. İndi bilavasitə “NABUCCO” layihəsinin əsas təşəbbüskarı-AB yeni addımlar atmalıdır.

Qlobal güc mübarizəsində enerji amilindən fəal istifadə edən Rusiya isə “NABUCCO” lahiyəsinə daha bir zərbə vurmağa çalışır. Bu istiqamətdə atılan ilk addım “Cənub axını” kəməridir. Rusiya baş naziri Vladimir Putin 2009-cu ilin avqustunda Türkiyəyə rəsmi səfəri zamanı Rusiya təbii qazını Avropaya ötürəcək “Cənub axını” boru xəttinin çəkilişi ilə bağlı rəsmi Ankaradan dəstək qazandı. Əldə olunan razılıq Rusiyaya Qara dənizin Türkiyə sektorundan boru kəməri inşa etməsinə imkan yaradacaq. Rəsmi Moskva ümid edir ki, yeni marşrut Rusiyanın Avropanın qaz təchizatçısı rolunu genişləndirəcək. Rusiyadan Bolqarıstanadək uzanacaq bu kəmər Avropaya rus qazını çatdıran ikinci xətt olacaq.

“Cənub axını”nın Rusiya üçün strateji əhəmiyyətini qeyd edən Türkiyə Ticarət və Sənaye Palatası Universitetinin Rusiya üzrə mütəxəssisi Midhət Çelikpala hesab edir ki, Ankarada imzalanan razılıq Qərbə mesajdır. Belə ki, enerji siyasətində Moskva yüksək mövqeyini hələ də saxlayır. Bu, təchizat baxımından suallarla üzləşilən “NABUCCO” layihəsinə bir cavab idi: Türkiyə 2009-cu ilin iyul ayında regional enerji mərkəzinə çevrilmək ümidi ilə 4 Avropa Birliyi dövləti ilə Rusiyanı adlayaraq Orta Asiyadan Avropaya qaz ötürəcək xəttin inşası ilə əlaqədar saziş imzalamışdı. 3300 kilometr uzunluqda olacaq “NABUCCO” qaz kəmərinin Xəzərə dənizi və Yaxın Şərqdən Avropaya ildə 31 milyard kub metr qaz ötürəcəyi nəzərdə tutulur. Layihə baş tutarsa, “NABUCCO” Avropanın qaz tələbatının 30 faizini ödəmək imkanına malik olacaq. Avropalılar buna habelə Rusiyanın enerji ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə etmək imkanlarının azaldılması kimi baxırlar. Lakin Çelikpalanın fikrincə, Vladimir Putinin baş nazir Rəcəb Təyyib Ərdoğanla imzaladığı razılaşma “NABUCCO”-ya ciddi zərbədir. Ona görə “NABUCCO”-nun təchizatı ilə bağlı suallar hələ də qaldığı halda

Rusiyanın hazır layihə ilə çıxış etməsi "NABUCCO"-ya sərf olunacaq investisiyanı risk qarşısında qoyur (2).

Hər iki layihənin nəzərdən keçirildiyi bir vaxt həm avropalılar, həm də ruslar Türkiyə ilə əlaqələri yaxşılaşdırmağa can atırlar. Ölkənin əlverişli geostrateji mövqeyi ona hər iki təklifi qəbul etmək imkanı verir.

Kreml admistarsiyasının yeni hədəfi "NABUCCO"-nun reallaşmasında əsas rol oynayacaq enerji şirkəti "Nabucco Gas Pipeline International GMBH"-nin yerləşdiyi və kəmərin Avropadakı son ünvanı olan Avstriyadır. Belə ki, 2009-cu il noyabrın 11-də Rusiya Baş Naziri Vladimir Putin avstriyalı həmkarı Verner Fayman ilə Moskvadakı görüşündə bu ölkə ilə enerji sahasində əməkdaşlığı gücləndirəcəklərini qeyd edib. Avstriya ilə enerji əməkdaşlığının hələ SSRİ dövründə çəkilən "Drujba" (Dostluq) qaz kəməri ilə başladığını xatırladan Putin görüşdə bu prosesin "Cənub axını" ilə daha da gücləndirilməsinin müzakirə edildiyini və yaxın günlərdə bu barədə əməkdaşlıq müqaviləsi imzalana biləcəyini bildirib. Putin bu əməkdaşlığın enerji xəttlərinin çeşidləndirilməsi strategiyasına uyğun olaraq həyata keçiriləcəyini, bunun da rus qazının nəqli prosesinin sabit və təhlükəsiz olmasını təmin edəcəyini vurğulayıb. O eyni zamanda bu əməkdaşlığın rus qazının keçdiyi digər tranzit ölkələrin fəaliyyətlərini də nizamlayacağına işarə edərək Ukraynaya mesaj göndərib.

Rusiyanın Avstriyanı da "Cənub axını" lahiyəsində əməkdaşlığa cəlb etməsini Rusiyanın enerji strategiyasının yeni uğuru saymaq olar. Xatırladaq ki, "Cənub axını"-nın Avropadakı nəql ünvanları sırasında Avstriya da İtalya ilə bərabər mühüm maşrutlardan biri hesab edilir. Rusiya-Avstriya əməkdaşlığı eyni zamanda "NABUCCO"-ya da yeni bir zərbə ola bilər.

Bununla belə Azərbaycan bütün ümidlərini "NABUCCO"-ya bağlamayıb. Belə ki, "NABUCCO" 2011-ci ildə başlayıb 2014-cü ilə qədər başa çatdırılmalıdır. **O vaxta qədər Azərbaycan nə etməlidir?** Hazırda Azərbaycan 27 milyard kub metr qaz istehsal edir. Onun 7 milyard kub metrini qaz formasında, 2 milyard kub metrini isə konsentrant formasında ixrac etməlidir. Bu baxımdan 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Strateji Enerji Tərəfdaşlığı haqqında Memorandum"un davamı kimi, 2009-cu il noyabrın 13-də Prezident İlham Əliyevin Bolqarıstana işgüzar səfəri zamanı qaz sahəsində imzalanmış saziş böyük əhəmiyyətə malikdir. Bu saziş nəinki Bolqarıstan, o cümlədən digər Şərqi Avropa ölkələri üçün təchizatın şaxələndirilməsi ilə bağlı yeni imkanlar açır. Sazişdə qeyd olunduğu kimi, Bolqarıstana 1 milyard kubmetr həcmində təbii qaz nəql ediləcəkdir. Bu məsələ Bolqarıstanın qazpaylayıcı sistemi Yunanıstanın qazpaylayıcı sisteminə tam birləşdiriləndən sonra baş tutacaqdır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi bununla Azərbaycan enerji təhlükəsizliyi və enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərinin həllinə öz töhfəsini verəcəkdir (5).

## *ƏDƏBİYYAT*

1. Bakı Enerji Sammitinin Bəyannaməsi // Dirçəliş-XXI əsr, 2008-2009, № 130-131, s. 14,15.
2. "Cənub Axını" qaz kəməri barədə saziş "NABUCCO"-ya zərbə kimi dəyərləndirilir. 11.08.2009, http://3view.az/articles/4330/1/
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
4. Həsənov Ə. Neft strategiyası və Azərbaycanın xarici siyasət fəaliyyətinin qurulması. Əsrin müqaviləsi-10. Bakı, 2005.
5. Prezident İlham Əliyevin Bolqarıstana işgüzar səfəri zamanı Bolqarıstan Respublikasının Prezidenti Georgi Pərvanovla birgə mətbuat konfransı. 13 noyabr 2009, http://president.az/articles.php?item_id=20091114093036857&sec_id=13
6. Piriyev A. Milli təhlükəsizlik və siyasi strategiya. Bakı, 2005.

7. Rəhimli R. Azərbaycan enerji təhlükəsizliyi sahəsində dünya siyasətində aparıcı mövqeyə malikdir. 23 iyul 2008, http://www.yeniazerbaycan.com/print/6348.html
8. Шорохов В. Нефть и политика Азербайджана. Москва, 1997.
9. www.anspress.com

**САРВАН ДЖАФАРОВ**
***магистр кафедры Политологии и социологии БГУ***

**УГЛЕВОДОРОДНЫЕ ЗАПАСЫ КАСПИЯ И ЭНЕРГЕТИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ АЗЕРБАЙДЖАНА: РЕАЛИИ И ПЕРСПЕКТИВЫ**

В статье рассматривается роль углеводородных запасов Каспия в энергетической безопасности ряда государств и Азербайджана. В том числе обращается внимание на достигнутые успехи в этом направлении.

**SARVAN JAFAROV**
***The master of Political science and sosiology department of BSU***

**CARBOHYDRATE RESERVES OF THE CASPIAN SEA AND ENERGY SECURITY OF AZERBAIJAN: REALITIES AND PERSPECTIVES**

The article indicates the role of the carbohydrate reserves of Caspian Sea in energy security of world countries and Azerbaijan Republic. And also pays attention to the done work and gotten success in this aspect.

***Rəyçilər: f.e.n.A.M.Şirinov, t.e.d.M.Fətəliyev.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 14 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***